(Əvvəli 2-ci səhifədə).

# Əbədiyaşar lider

Ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş təntənəli yubiley şənlikləri axşam saat 8-də “Qafqaz Sport” otelin qarşısındakı meydanda davam etdi. Yenə adamlar dəstə-dəstə meydana axışırdılar. Hər yandan ulu öndərə həsr edilmiş mahnılar, şeirlər ucalırdı, rəqslər bir-birinə qarışmışdı. Ümumiyyətlə meydan yenə izdihamlı idi.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, qonaqlar və ictimaiyyətin nümayəndələri ulu öndərin yubiley şənliklərində iştirak etmək üçün meydana gəldilər.

“Spase” televiziyasının aparıcısı Mikayıl Güləddinoğlu yubiley şənliyinin başlanmasını elan etdi. O, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışmaq üçün sözü rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verildi.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin təşəkkülünün, milli-mənəvi dəyərlərə qayıdışın, elmin, təhsilin, mədəniyyətin inkişafının Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırdı. O, bildirdi ki, 1969-cu ilin iyulundan Heydər Əliyev qüdrətli dövlətin, milli intibahın, sosial tərəqqinin, mənəvi yüksəlişin təməlini qoydu. Xalqımız əsrlər boyu qazandığı nailiyyətləri, ali keyfiyyətləri Heydər Əliyev erasında kamilləşdirərək sistem halına saldı, xalq kimi mövcudluğunu, dövlət qurmaq haqqını nümayiş etdirdi.

Heydər Əliyevin tarixi uzaqgörənliyi fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir.




Azərbaycan həqiqətlərinin dünyaya bəyan edilməsi, Azərbaycanın iqtisadi, sənaye kompleksinin, neft sektorunun inkişafı, milli-mənəvi dəyərlərin qorunması, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafı, müstəqil dövlət quruculuğunda əldə edilən nailiyyətlər Heydər Əliyevin gərgin fəaliyyətinin nəticələridir. Bu gün əsas nailiyyətlərimiz sayılan ictimai sabitliyin davamlı prosesə çevrilməsi, xalqın iqtisadi rifahını təmin edəcək neft strategiyasının hazırlanması hüquqi, siyasi və qanunverici islahatların daim aparılması və digər mühüm proseslər Heydər Əliyev siyasi kursunun Azərbaycanın dövlətçilik konsepsiyasına çevrilməsindən xəbər verir.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir.

Natiq qeyd etdi ki, Azərbaycan xalqının təkidli tələbi ilə 1993-cü ilin iyun ayında siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Milli Məclis qarşısında etdiyi dərin məzmunlu çıxışında yeni siyasi strategiyanın mahiyyətini açıqladı. Ölkəmizin xarici siyasət prioritetlərini müəyyən etdi. Bu əlbəttə, Azərbaycan xalqının taleyində dönüş məqamı kimi yaddaşlara yazıldı. Xalqımızın qəlbində və dövlətimizin tarixində özünə əbədiyyət abidəsi ucaltmış ümummilli lider Heydər Əliyevin fəaliyyətinin hər mərhələsi Azərbaycanın yüksəliş mərhələləri ilə üst-üstə düşür. Tarixi gerçəklik ondan ibarətdir ki, Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən milli müstəqillik duyğularının reallaşmasına çalışan ulu öndər Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Səbuhi Abdullayev vurğuladı ki, Qəbələ Rayonunda müşahidə olunan böyük canlanma, inkişaf və tərəqqi ilk növbədə, sistemli, ardıcıl və yeniliyə əsaslanan mütərəqqi iş üslubunun bəhrəsi ulu öndər Heydər Əliyevin qayğısının məntiqi nəticəsidir. Onun Qəbələyə hər bir səfərini rayon sakinləri böyük ehtiramla xatırlayır. Bu gün isə Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyev ümummilli liderin siyasi kursunun bütün sahələrdə layiqli davamçısıdır. Fəaliyyətini məhz cənab Prezidentimizin tövsiyə və tapşırıqları əsasında quran Qəbələ RİH də dinamik yüksəliş üçün bütün zəruri tədbirləri həyata keçirməyə, ölkədəki inkişaf proseslərinə töhfəsini verməyə çalışır. Ulu öndərin hakimiyyəti dövründə özü üçün güclü istehsal potensialı, zəngin infrastruktur formalaşdırılmış Qəbələ rayonu Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə böyük uğurlar əldə edərək daha da müasirləşib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konsert proqramında çıxış edən respublikanın xalq artisti Ağadadaş Ağayev və digərləri maraqlı ifaları ilə tamaşaçıların diqqətini cəlb etmişlər.

**Aslan CƏLİLOV.**

**Foto S. Umuyevindir.**

# Qəbələ III Beynəlxalq İncəsənət Sərgisinin açılış mərasimi olmuşdur

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə təşkil edilən Qəbələ III Beynəlxalq İncəsənət Sərgisinin açılış mərasimi olmuşdur. Azərbaycan Mədəniyyəti Fondunun və SEBA (Seul—Baku) Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkilatçılığı ilə Qəbələ Mədəniyyət Mərkəzində keçirilən beynəlxalq sərginin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək abidəsi önünə əklil və gül dəstələri qoymuşlar. Sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət etmişlər.

«Portretlərin melodiyası» adı altında təşkil edilən sərgidə dünyanın 23 ölkəsini— Azərbaycan, Almaniya, Avstriya, Albaniya, Braziliya, Banqladeş, Bolqarıstan, Gürcüstan, İsrail, İtaliya, Koreya, Latviya, Rusiya, Yaponiya, Yunanıstan, Sinqapur, İraq, İran, Hollandiya, Əlcəzair, Finlandiya, Türkiyə və Ukraynanı təmsil edən 158 rəssamın 291 əsəri nümayiş etdirilir. Sərgidə nümayiş olunan rəsmlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın əsərləri də yer almışdır.

Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Qəbələ III Beynəlxalq İncəsənət Sərgisinin iştirakçılarına ünvanlanmış təbrik məktubu oxunmuşdur.

Mərasimdə çıxış edən SEBA-nın sədri Ruhəngiz Heydərova tədbirin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır. O, bu sərginin mədəniyyətimizin geniş miqyaslı təbliği istiqamətində reallaşdırılan layihələrin davamı olduğunu bildirmiş, tədbirin baş tutmasına yaxından kömək göstərmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya minnətdarlıq etmişdir.

Ruhəngiz Heydərova bildirmişdir ki, ötən illə müqayisədə builki sərgidə iştirak edən rəssam və heykəltəraşların, onların təmsil etdiyi ölkələrin sayının artması onu göstərir ki, bu layihənin ideyasına olan maraq ildənilə artır. Bu isə öz növbəsində Azərbaycana, incəsənətimizə olan diqqətin daha bir göstəricisidir.

(Ardı 4-cü səhifədə).